# NAFTALAN




*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 1-2 (417) • 31 yanvar 2020-ci il • Qiyməti 90 qəpik


## AZƏRBAYCAN RESPUBLİKASINDA 2020-Cİ İLİN "KÖNÜLLÜLƏR İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI



Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə qərara alıram:

1.2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 dekabr 2019-cu il.**

## Naftalan şəhər İcra Hakimiyyəti başçısının "Naftalan şəhərində sərbəst toplaşmaq üçün yer müəyyənləşdirilməsi haqqında" 01 noyabr 2019-cu il tarixli 68 nömrəli Sərəncamına əlavələr edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinin və "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının 13 noyabr 1998-ci il tarixli Qanununun tələblərinin təmin edilməsi məqsədi iləNaftalan şəhər İcra Hakimiyyəti başçısının "Naftalan şəhərində sərbəst toplaşmaq üçün yer müəyyənləşdirilməsi haqqında" 01 noyabr 2019-cu il tarixli 68 nömrəli Sərəncamına əlavələr edilməsi üçün "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.15.2-ci bəndinə uyğun olaraq

**Qərara alıram:**

1. Naftalan şəhərində vətəndaşların sərbəst toplaşması üçün 1 (bir) açıq və 1 (bir) qapalı yer müəyyən edilsin.

2. Naftalan şəhərində dövlət orqanlarına qabaqcadan xəbərdarlıq etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər keçirmək məqsədi ilə Naftalan Şəhəri Qaşaltı Qaraqoyunlu kənd Mədəniyyət Evinin 200 yerlik zalı qapalı, 2000 yerlik Naftalan şəhər stadionu açıq toplaşmaq yeri üçün müəyyənləşdirilsin.

3. "Azərpoçt" MMC-nin Naftalan Poçt Filialının və şəhər Məşğulluq Mərkəzinin inzibati binasının, şəhər İ.Nəsimi adına 1, S.Vurğun adına 2 nömrəli və Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəblərinin həyətində əyani təşviqat vasitələrinin asılması üçün 5 yer müəyyənləşdirilsin.

4. Tapşırılsın şəhər İcra Hakimiyyəti başçısı aparatının sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı Aynurə Novruzovaya sərbəst toplaşmaq haqqında müraciət edənlərə müvafiq sənədlərin verilməsini təmin etsin.

5. Tapşırılsın şəhər İcra Hakimiyyəti başçısı aparatının şəhər təsərrüfatı şöbəsinin böyük məsləhətçisi Sədi Musayevə və İcra Hakimiyyəti aparatının memarlıq və tikinti şöbəsinin baş məsləhətçisi Səbuhi Qasımova əyani təşviqat vasitələrinin asılması üçün müvafiq tədbirlərin görülməsini təmin etsinlər.

6. Bu Sərəncam "Naftalan" qəzetində dərc edilsin.

**Vüqar NOVRUZOV**
**Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı**

## Könüllülər ilində gəncliyin potensialından daha səmərəli istifadə ediləcək

Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub.

Müasir Azərbaycanda könüllülük sahəsində ilk addımlar Ulu Öndərimizin hakimiyyətə qayıdışından sonra atılıb.

Məlum olduğu kimi, Prezident İlham Əliyev dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib.

Nazirlər Kabinetinə bununla bağlı tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Sərəncamda qeyd olunur ki, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılıb, normativ hüquqi baza təkmilləşdirilib, dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə edib, gənclərimizin həyat tərzinə çevrilib. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb.

Bu ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi insanların sülhsevərlik, xeyirxahlıq kimi ümumbəşəri dəyərlər ətrafında birləşməsinə, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclərin dövlətə, Vətənə bağlı, məsuliyyətli bir vətəndaş kimi formalaşmasına, uğurla həyata keçirilən gənclər siyasətinə müsbət təsir göstərəcək.

Ötən il 5 dekabr - Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilən və bütün könüllüləri əhatə edən Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirib.

Azərbaycanda gənclərə göstərilən bu etimadın, diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Bu gün ölkədəki yüzlərlə qeyri-hökumət və gənclər təşkilatının səmərəli fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə xüsusi dəstək göstərməsi hər bir gəncdə özünə, öz gücünə, istedadına, potensialına inam hissini artırıb. Bu baxımdan az müddət bundan əvvəl uğurla keçirilən bələdiyyə seçkilərində gənclərin fəallıq nümayiş etdirmələri də təsadüfi deyildi. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə son vaxtlar aparılan köklü islahatlar gəncləri bələdiyyə seçkilərində daha fəal iştiraka ruhlandırmışdı. Ümumiyyətlə, gənclərin seçkilərdə daha fəal iştirakı və öz innovativ potensiallarından geniş istifadə edə bilmələri üçün ölkəmizdə hərtərəfli şərait yaradılıb.

Bu gün Azərbaycan Prezidenti gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunmasını, onların məşğulluğunun təmin edilməsini, dövlət idarəçilik sistemində iştirakı istiqamətində kompleks tədbirlər həyata keçirilməsini əsas hədəflər kimi qarşıya qoyub.

Son illər ərzində gənclərin ölkənin mədəni, ictimai-siyasi, iqtisadi həyatında fəallığının artması mövcud konsepsiyanın uğurla icrasının göstəricisidir. Bunu gənclərin artıq müşahidəçi qismindən birbaşa siyasi-ictimai proseslərin iştirakçısına çevrilməsi faktı da sübut edir. Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycanda uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına olduqca müsbət təsir göstərir.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhid ailəsi ilə görüşüb



Hər zaman şəhidlərimizə, onların ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərən şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhid ailəsi Zülfümar Nuriyeva ilə görüşüb. Şəhər İcra Hakimiyyətinin başçısı Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibəti ilə şəhid ailəsini təbrik edib. İcra başçısı şəhid ailəsinin arzu və istəklərini dinləyib, problemləri ilə yaxından maraqlanıb. Zülfümar Nuriyevanı diqqətlə dinləyən şəhər rəhbəri müraciətlərinin həlli üçün müvafiq tapşırıqlarını verib.

Qəbul zamanı şəhid ailəsinə şəhər İcra Hakimiyyəti tərəfindən bayram sovqatı təqdim edilib.

**REDAKTORDAN**

# Naftalan Şəhər İcra Hakimiyyəti başçısının 2020-ci ilin ilk vətəndaş qəbulu keçirilib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun 07 yanvarda keçirilən yeni ilin ilk vətəndaş qəbulunda fərdi olaraq vətəndaşların müraciətləri dinlənilib. Vətəndaşların müxtəlif məzmunlu müraciətlərini diqqətlə dinləyən şəhər rəhbəri həlli vacib və mümkün olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanunamüvafiq formada aradan qaldırılması üçün aidiyyəti üzrə tapşırıqlar verib.

Bütün müraciətlər qeydiyyata alınaraq icrası nəzarətə götürülüb.

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhərdəki Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzində olub



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov şəhərdəki əsaslı təmir və yenidənqurmadan sonra yeni istifadəyə verilmiş Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzindəki yaradılan şəraitlə tanış olub, burada reablitasiya alan əlilliyi olan şəxslərlə görüşüb və onların qayğıları ilə maraqlanıb.

Mərkəzin baş həkimi Pərvanə Abdurəhmənova şəhər rəhbərinə mərkəzin fəaliyyəti və yaradılmış şərait barədə ətraflı məlumat verib. Bildirib ki, otaqların hər birində bu kateqoriyadan olan vətəndaşların rahatlığı üçün lazımi şərait yaradılıb.

İcra başçısı qeyd edib ki, əlilliyi olan şəxslər üçün belə müasir tələblərə uyğun reabilitasiya müəssisəsinin istifadəyə verilməsi cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bütün vətəndaşlara, o cümlədən əlilliyi olan şəxslərə göstərdiyi xüsusi qayğının bir təzahürüdür və eyni zamanda, dövlət başçısının tapşırıqlarına əsasən, ölkədəki bütün reabilitasiya mərkəzlərində müasir tələblərə uyğun şərait yaradılır.

Şəhər rəhbərinin onlara baş çəkməsindən razılıqlarını bildirən əlilliyi olan şəxslər ildən-ilə gücləndirilən sosial müdafiə tədbirlərinə, eləcə də bu kateqoriyadan olan vətəndaşların sağlamlıqlarının bərpası, reabilitasiya infrastrukturunun müasirləşməsi sahəsində aparılan mühüm işlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı qəbulda olan vətəndaşların müraciətləri əsasında onları evlərində ziyarət edib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov İcra Hakimiyyətində qəbulda olan aztəminatlı ailələrin şifahi müraciətləri əsasında onları evlərində ziyarət edib. Şəhər rəhbəri həmin ailələrin yaşayış şəraiti ilə yaxından maraqlanıb, problem və istəkləri dinləyib və problemlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

Həmçinin şəhər İcra Hakimiyyəti tərəfindən Yeni il bayramı münasibəti ilə ailələrə bayram sovqatları təqdim edilib.Sakinlər göstərilən diqqət və qayğıya, eləcə də Naftalanda görülən işlərə görə ölkə rəhbərliyinə - cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Naftalanda icbari tibbi sığorta ilə bağlı maarifləndirici tədbir keçirilib




Naftalan şəhəri 1 nömrəli tam orta məktəbin akt zalında icbari tibbi sığortaya keçidlə əlaqədar maarifləndirici tədbir keçirilib. Şəhər İcra Hakimiyyətinin və İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə şəhər ictimaiyyəti iştirak edib.

Tədbirdə şəhər icra hakimiyyəti başçısının müavini Afət Cabbarova, şəhər mərkəzi xəstəxanasının direktoru Orxan Bağızadə, Agentliyin Gəncə filialının rəhbəri Azər Dəmirov və İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin marketinq və tədbirlər şöbəsinin məsləhətçisi Elvin Abbasov çıxış edərək icbari tibbi sığortanın əsas mahiyyətindən danışıb və bunun ölkəmizdə tətbiqinin səhiyyə sisteminin inkişafı üçün əhəmiyyət kəsb etdiyini bildiriblər.

Sonda tədbir iştirakçıları tərəfindən verilmiş suallar cavablandırılıb.

**Afət MUSTAFAYEVA,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında baş məsləhətçi, ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhər qəbirstanlığını ziyarət edib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhər qəbirstanlığında olub və şəhidlərin məzarını ziyarət edib.

Şəhər rəhbəri qəbirstanlıqdakı mövcud vəziyyətlə tanış olduqdan sonra burada abadlıq işlərinin aparılması barədə şəhər bələdiyyə- sinə müvafiq tapşırıqlarını vermişdir.

Eyni zamanda icra başçısı şəhərdəki xristian qəbirstanlığındakı mövcud vəziyyətlə tanış olub.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**




# Naftalan şəhərində "20 Yanvar faciəsinin otuzuncu ildönümü" böyük ehtiramla yad edilib



Naftalan şəhərində Azərbaycan tarixinin faciəli, eyni zamanda şərəfli səhifəsi olan "20 Yanvar faciəsinin otuzuncu ildönümü" nə həsr olunmuş geniş anım tədbiri keçirilib.

Anım tədbirində Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov, ŞİH Başçısı aparatının əməkdaşları, şəhərin idarə, müəssisə, hüquq-mühafizə orqanlarının rəhbərləri və nümayəndələri, ümumilikdə mindən artıq şəhər ictimaiyyətinin nümayəndəsi iştirak ediblər.

Tədbir iştirakçıları "Xatirə kompleksi"ni ziyarət edib, ərazi bütövlüyümüz uğrunda canlarından keçən Vətən övladlarının abidəsi önünə əklil və gül dəstələri qoyublar.

Ümumxalq hüzn günü ilə əlaqədar şəhərin ərazisində dövlət bayraqları endirilib, saat 12:00-da bütün yaşayış məntəqələrində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillərdən səs siqnalları verilib.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**



# 20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir

**Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan xalqının qürur mücəssəməsinə çevrilən 1990-cı ilin 20 Yanvar hadisələrindən 30 il ötür. Ən yeni tariximizin şərəfli səhifələrindən biri sayılan 20 Yanvar xalqımızın azadlıq, demokratiya və suverenlik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya nümayiş etdirdi, milli azadlıq hərəkatının müstəqilliyə doğru irəliləməsində ciddi dönüş nöqtəsi oldu. Azərbaycanın istiqlal tarixi çox faciələr görüb. Lakin qanlı 20 Yanvar hadisələri insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində əbədi qalacaqdır. Bu, keçmiş sovet hərb maşınının böyük bir millətə tuşlanmış amansız terror aktı idi. İllər keçdikcə xalqımız 20 Yanvar qırğınının əsl mahiyyətinin səbəblərini daha aydın şəkildə dərk edir və hər dəfə də haqsızlığın miqyası heç bir ölçüyə sığmadığı kimi, faciəyə aparan ədalətsiz siyasətin, daha doğrusu, xəyanətkarlığın hüdud tanımadığı dönə-dönə sübut olunur. Bu qanlı tarixi unutdurmaq üçün vaxtilə nə qədər təşəbbüslər oldu: qəzetlər buraxılmadı, dövlət televiziyasının enerji bloku partladıldı, ölkənin bütün kütləvi informasiya vasitələri iflic vəziyyətinə salındı. Azərbaycan xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin azadlığı və müstəqilliyi uğrunda ən ağır sınaqlara dözmək, hətta şəhid vermək qüdrətini bütün dünyaya göstərmək əzmindədir. Bu qanlı tarix - 20 Yanvar faciəsi həm də SSRİ adlanan nəhəng imperiyanın iflasında da əsas amillərdən biri oldu.

1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Ulu Öndər Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi. Ümummilli Liderin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir.

Bu gün 20 Yanvar hadisələrinin iştirakçıları və şəhid ailələri dövlətin daim diqqət mərkəzindədir. Cənab Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi qayğı göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlət başçısı 2004-cü ildə 20 Yanvar faciəsinin 14-cü ildönümünün keçirilməsi ilə bağlı sərəncamında bildirirdi ki, Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdilər. Faciədən sonrakı tarixi proses xalqımızın siyasi iradəsinin, müstəqillik arzularının yenilməzliyini bir daha təsdiqlədi. 20 Yanvar hadisələrində qurbanlar verildi, lakin həmin faciəli günlər inam və sınaq günü kimi də yadda qaldı. Qəhrəman xalq həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi.

Vətənimizin müstəqilliyi, azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımızın əziz xatirələri qəlbimizdə həmişə yaşayacaq!

**Aytəkin SƏMƏDZADƏ,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Naftalan şəhər Qeydiyyat şöbəsinin rəisi vəzifəsini icra edən**

# Naftalan şəhərində "20 Yanvar faciəsinin otuzuncu ildönümünü" ilə əlaqədar anım tədbiri keçirilib

14 yanvar 2020-ci il tarixdə Naftalan şəhər Heydər Əliyev Mərkəzində "20 Yanvar günü Azərbaycanın istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir" mövzusunda anım tədbiri keçirilib.

Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyəti Başçısı aparatının nümayəndələri, şəhərin idarə, müəssisə və təşkilatlarının kollektivi, ümumtəhsil məktəblərinin müəllimləri və yuxarı sinif şağirdləri iştirak ediblər.

Tədbir 20 Yanvar Şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Naftalan ŞİHB aparatında ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı, baş məsləhətçi Afət Mustafayeva tədbiri giriş sözü ilə açaraq xalqımızın həyatında və yaddaşında dərin iz qoymuş, onun sonrakı taleyinə güclü təsir göstərmiş hadisələr sırasında Qanlı Yanvarın özünəməxsus yeri olduğunu bildirib. Qeyd edib ki, bu hadisə təkcə çoxsaylı insan tələfatına, mənəvi itkilərə və maddi dağıntılara səbəb olmuş faciə kimi deyil, həm də ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinin şərəf və qəhrəmanlıq səhifəsi kimi səciyyələndirilir.



Tədbirdə 2 nömrəli tam orta məktəbin tarix müəllimi Təranə Vəliyeva "20 Yanvar günü Azərbaycanın istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir" mövzusunda geniş çıxış edib. Təranə Vəliyeva çıxışında "20 Yanvar " hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymətin Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildiyini, möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndiyini, ölkəmizin sürətlə inkişaf etdiyini, ordumuzun gücləndiyini vurğulayıb.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş film nümayiş etdirilib.

**Afət MUSTAFAYEVA,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında baş məsləhətçi, ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı**

# Naftalan şəhər V.Namazov adına Körpələr evi-uşaq bağçasında 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



Naftalan şəhər V.Namazov adına Körpələr evi-uşaq bağçasında 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

20 Yanvar şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə Körpələr evi-uşaq bağçasının müdiri Kəmalə Hüseynova çıxış edərək qeyd etdi ki, bu cür tədbirlərin keçirilməsində məqsəd gənc nəslə vətənpərvərlik hissini aşılamaq və onları bu istiqamətdə maarifləndirməkdir. O,qeyd edib ki, "20 Yanvar" hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsada bu hadisə milli tariximizin ən şanlı səhifələrindən birini təşkil edir. Bu hadisə milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhalinin qəhrəmanlığıdır. Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilmişdir. Azərbaycanın azadlıq və müstəqillik mübarizəsi tarixində mühüm mərhələ olmuş 20 Yanvar faciəsi qurbanlarının xatirəsi hər zaman ehtiramla yad olunacaqdır.

Anım tədbirində uşaqların ifasında faciə qurbanlarına həsr olunmuş şeirlər,kompozisiyalar təqdim olunub, film nümayiş etdirilib.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhərdə fəaliyyət göstərən turizm obyektlərinin rəhbərləri ilə görüşüb



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Naftalanda fəaliyyət gostərən sanatoriya-kurort müəssisələrinin rəhbərləri ilə görüş keçirib.

İcra başçısı görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab möhtərəm İlham Əliyevin rəhbərliyi ilə sahibkarlığın inkişafı üçün həyata keçirilən işlərdən ətraflı danışıb və sahibkarların fəaliyyətinə daim diqqət və qayğı göstərilməsinin vacibliyini qeyd edib. Bu səbəbdən də sahibkarlarla görüşməyi, təklif və arzularını dinləməyi vacib olduğunu vurğulayıb.

Görüşdə çıxış edənlər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün ölkədə, o cümlədən Naftalan şəhərində də münbit şəraitin olduğunu və sahibkarlara göstərilən diqqət və qayğıya görə möhtərəm cənab Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

Görüşə yekun vuran şəhər rəhbəri bildirdi ki, Naftalan neftinin dünya brendi kimi tanınması və şəhərin turizm mərkəzi kimi daha da inkişaf etməsi üçün hər cür dəstək göstəriləcəkdir.

Şəhər rəhbəri vurğuladı ki, möhtərəm cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naftalanın keçmiş şöhrəti bərpa edilir. Naftalan vaxtilə Ümumittifaq turizm mərkəzi idi. Bu gün bunu beynəlxalq turizm mərkəzinə çeviririk. Göründüyü kimi, şəhərimiz özünün inkişafının yeni mərhələsinə qədəm qoyub. Burada aparılan hər bir tikinti, quruculuq işi Naftalan kurortunun şöhrətini özünə qaytarır, müasir kurort şəhərinə çevirir.

**REDAKTORDAN**

# Dünya şöhrətli şəfa ocağı



Azərbaycanın gənc şəhərlərindən olan Naftalan neft əsasında formalaşmış, sağlamlıq-turizm məkanı kimi fəaliyyət göstərir. Buna görə də bu şəhərin iqtisadiyyatının əsasını kurort-sanatoriya xidməti təşkil edir.

Nadir müalicəvi xassəli naftalan nefti bu şəhəri nəinki ölkəmizdə, eləcə də yaxın və uzaq xaricdə məşhurlaşdırmışdır. Bu məlhəmin hikməti bütün dünyada mütəxəssislərə yaxşı bəllidir. Təbiətdə analoqu olmayan bu neftdən 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Xüsusən, hərəkət-istinad, nevroloji, damar, uroloji, ginekoloji və dəri xəstəliklərinin aradan qadırılmasında naftalanın tətbiqi olduqca təsirli vasitədir. Keçmiş SSRİ dönəmində Naftalan ittifaqın məşhur kurortları arasında müalicə-sağlamlıq əmsalının yüksəkliyi ilə (80-85 faiz) ön sırada olub. Bütün bunlara görə Naftalan nefti Azərbaycanın ən qiymətli təbii sərvətlərindən biri sayılır.

Azərbaycanın təbib qüdrətli, şan-şöhrətli müalicə-istirahət məkanı "Naftalan"a gələnlərin sayı ildən-ilə çoxalır. "Naftalan" neftinin "möcüzə"si qədim zamanlardan məlum olub. Hələ o vaxtlar biliblər ki, naftalan nefti onlarca xəstəliyin dərmanıdır. 1935-ci ildən burada "Naftalan" kurortu müalicə mərkəzi kimi fəaliyyətə başlayıb. Təbiətin xalqımıza bəxş etdiyi bu əvəzsiz sərvətdən kütləvi şəkildə istifadənin təşkili isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1982-ci il fevralın 19-da Ulu Öndərin təşəbbüsü ilə Naftalan kurort şəhərini inkişaf etdirmək tədbirləri haqqında geniş qərar qəbul olunub. Məhz həmin qərara əsasən burada bir sıra müalicə müəssisələri tikilib. Nəticədə buraya gələnlərin sayı xeyli artıb.

Belə şəfa ocaqlarından biri də Naftalan Müalicə Sağlamlıq Mərkəzidir. Burada sözün həqiqi mənasında, möcüzə yaradılıb. Müalicə ocağı yüksək zövq və səliqə ilə tikilib, müasir standartlara tam cavab verir.

Söhbət zamanı Naftalan Müalicə Sağlamlıq Mərkəzinin direktoru İlqar Hüseynov qeyd etdi ki, hazırda şəhərdə üçü 5 ulduzlu olmaqla 12 sanatoriya fəaliyyət göstərir. Cənab Prezident İlham Əliyev Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirməyi başlıca vəzifələrdən biri kimi qarşıya qoyub. Bu yaxınlarda Naftalan Şəhər İcra Hakimiyyətinin yeni başçısını təyin edərkən cənab Prezident İlham Əliyev həmin vacib məsələyə bir daha toxunub. Naftalanın müasir kurort mərkəzinə çevrilməsi üçün görülən ardıcıl tədbirlərin bəhrə verdiyini vurğulayıb. Naftalan məşhur balneoloji kurort mərkəzidir. Bu gün Naftalan nefti tibbin bir çox sahələrində ən yaxşı və əvəzedilməz müalicə üsullarından biri sayılır. Naftalan neftinin orqanizmə şəfaverici təsirinin ən geniş yayılmış üsulu müalicəvi vannalardır. İlqar Hüseynov söhbət zamanı bildirdi ki, Mərkəzdə naftalan vannaları və yaxmaları, yod-bromlu su vannaları, parafinlə müalicə, masaj, sualtı dartırma və başqa kabinetlər, diaqnostika, biokimyəvi laboratoriyalar fəaliyyət göstərir. O, bildirdi ki, işlədiyim 15 il ərzində Naftalan nefti minlərlə turistin sağlamlığına kömək etmiş, onlara sağlamlıq bəxş etmişdir. Mərkəzin fəaliyyəti dövründə 32 ölkədən xarici turist qəbul etmiş və turistlərin müalicəsi standartlara uyğun aparılmışdır. Göstərilən yüksək xidmətlərin nəticəsidir ki, Naftalan Müalicə Sağlamlıq Mərkəzinə gələn turistlərin sayı günü-gündən artır.

2008-ci ildə cənab Prezident İlham Əliyevin Naftalana səfəri şəhər üçün yeni era açdı, əhaliylə görüşü zamanı cənab Prezident Naftalanın əvvəlki şöhrətinin yenidən bərpa ediləcəyini qeyd etdi.

Naftalan Müalicə Sağlamlıq Mərkəzində turistlərin sayı ötən illərlə müqayisədə 2019-cu ildə 20 faiz artmışdır. Azərbaycanda, Naftalanın inkişafı yüksək səviyyədə gedir, əhalinin sağlamlığının bərpa edilməsi üçün hər cür şərait yaradılmışdır. Bir sözlə, əvəzsiz müalicə və istirahət məkanımız olan "Naftalan"ın gələcək şöhrəti daha böyük olacaq.

**Naftalan Müalicə Sağlamlıq Mərkəzində müalicə olunan, şəfa tapan, dincələn insanlarla da görüşdük, onların ürək sözlərini dinlədik.**

**Baronov Vladimir – xarici turist:** Naftalan Müalicə Sağlamlıq Mərkəzində çox gözəl müalicə alırıq. Həkimlərdən, tibb işçilərindən, ümumiyyətlə, burda çalışanların hamısından çox razıyıq. Hər tərəf təmiz və səliqəlidir. Burada həm müalicə olunmaq, həm də mənalı istirahət etmək üçün hər cür şərait var. Mən belə təbii müalicəxana yaratdıqlarına, diqqət, qayğı və isti münasibətə görə mərkəzin rəhbərliyinə minnətdarlığımı bildirirəm. Hər kəsə bura gəlməyi məsləhət görürəm.

**Andrianova Olga - xarici turist:** Moskvadan gəlmişəm internetdə Naftalanla bağlı məlumatlar əldə etdim. Düzünü desəm əvvəl tərəddüd edirdim. Amma ölkənizin turizm bazası və transfer xidmətləri məndə elə ilk gündən yaxşı təəssürat oyatdı. Azərbaycan mətbəxini çox sevdim. Burada həkimlər tərəfindən dəqiq müayinə olunduqdan sonra müalicəvi naftalan vannalarını qəbul edirəm. Dostlarıma da bura üz tutmağı məsləhət görəcəm.Naftalan şəhəri haqqında müsbət fikirlərlə ölkəmizə qayıdacam.

Turistlərin bu cür fikirləri ondan xəbər verir ki, Naftalan yaxın gələcəkdə öndə gedən kurort şəhərlərindən birinə çevriləcək.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə turistlərin rahatlığı üçün innovativ addım

Naftalanın kurort şəhəri kimi keçmiş şöhrətini qaytarmaq və yeni məzmunda inkişaf etməyinin əsasını cənab Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamlar, qəbul edilən proqramlar və qarşıya qoyulan vəzifələrin icrası təşkil edir.

Məhz həmin tapşırıqların icrasının nəticəsidir ki, Naftalan son illərdə beynəlxalq turizm mərkəzinə çevrilib. Bu gün Naftalanda turizmin inkişafı üçün əlverişli şərait yaradılıb. Hazırda şəhərdə geniş abadlıq-quruculuq işləri və müasir səviyyəli sanatoriyaların tikintisi davam etdirilir.

2019-cu ildə kurort şəhərinə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə artaraq 40 min nəfərədək çatmışdır. Onlardan 40 faizi xarici turistlərin payına düşür. Bu statistika müstəqillik illərində Naftalanda qeydə alınan ən yüksək göstəricidir.

Görülən işlərlə yanaşı turistlərin rahatlığını təmin etmək və onları narahat edə biləcək problemlərin həlli paralel aparılır.




Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun təşəbbüsü və şəhərdə fəaliyyət göstərən "Naftalan Müalicə və Sağlamlıq Mərkəzi"nin dəstəyi ilə şəhərə gələn turistlərin məmnunluğunu və onların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə Naftalan - Goran dəmiryolu stansiyası - Naftalan istiqamətində müasir standartlara cavab verən Toyota markalı sərnişin daşıyan nəqliyyat vasitəsi istifadəyə verilib. Turistlərin bu istiqamətdə daşınması "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarının hərəkət cədvəlinə, sürət qatarının Goran stanasiyasına çatma vaxtına uyğun olaraq həftənin hər günü həyata keçiriləcək və göstərilən xidmət ödənişsiz qaydada göstəriləcək.

Gələcəkdə bu xidmətdən istifadəyə tələbat artarsa həmin marşurut xətti üzrə nəqliyyat vasitələrinin sayı artırılacaq.

Bu marşurutun açılmasının əsas səbələrindən biri də Bakı-Gəncə-Bakı yeni sürətli sərnişin qatarının istifadəyə verilməsi və bu qatardan istifadə edərək Naftalana gələn yerli və xarici turistlərin sayında artım müşahidə olunmasıdır.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalanda yeni turizm-sağlamlıq mərkəzləri tikilir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, sərmayələrin cəlb edilməsi və yeni iş yerlərinin açılması ilə bağlı tapşırıqları Naftalan şəhərində də diqqət mərkəzində saxlanılır. Son illərdə Naftalanda görülən işlər nəticəsində buraya gələn turistlərin sayında qeydə alınmış artım dinamikası şəhərdə yeni turizm-sağlamlıq obyektlərinin tikilməsini zəruri edib.

Hazırda şəhərdə 3 yeni turizm mərkəzinin tikintisi aparılır.

Şəhərin Nizami Gəncəvi küçəsində yerləşən dördmərtəbəli 288 yerlik Gold Naftalan. mərkəzi 144 otaqdan ibarətdir. Həmçinin mərkəzin zirzəmisində texniki və yardımçı otaqlar, çamaşırxana, müalicə hovuzu, anbar, 1-ci mərtəbədə yeməkxana, personal otaqları, 2-ci, 3-cü, 4-cü mərtəbələrdə həkim otaqları, 108 yataq otağı və mansard hissədə 36 yataq otağı var.

Bundan başqa tikintisi aparılan Nizami küçəsi 11 ünvanda yerləşən dördmərtəbəli yeni sanatoriya kompleksidir. 88 otaqlı 192 yerlik bu sanatoriyanın zirzəmi mərtəbəsində texniki otaqlar, idman zalı, masaj otaqları, anbar otaqları, 1-ci mərtəbədə yeməkxana, personal otaqları, həkim otaqları, çamaşırxana, 2-ci, 3-cü, 4-cü mərtəbələrdə 67 yataq otağı, mansard hissədə isə 21 yataq otağı var.

Hazırda tikinti işləri davam etdirilən daha bir müasir sanatoriya R.Zülfiqarov küçəsi 64A ünvanında yerləşir. Bu yeni kompleks bir beşmərtəbəli müalicə-poliklinika korpusundan və 88 otaqlı 176 yerlik olmaqla bir beşmərtəbəli yataq korpusundan ibarətdir. Müalicə-poliklinika korpusunun zirzəmisində texniki və yardımçı otaqlar, çamaşırxana, anbar, 1-ci mərtəbədə vanna və tibb bacısı otaqları, 2-ci və 3-cü mərtəbələrdə həkim və personal otaqları, 4-cü mərtəbədə isə yeməkxana olacaq.

Qeyd edək ki, hazırda Naftalanda 11 turizm obyekti fəaliyyət göstərir və burada 1100 nəfərədək vətəndaş çalışır. 2019-cu ildə şəhərə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə artaraq 40 min nəfərədək çatmışdır. Onlardan təxminən 40 faizi xarici ölkələrdən gələnlər olub.

Şəhərdə tikintisi davam etdirilən turizm obyektləri də istifadəyə verildikdən sonra Naftalanda gün ərzində 3800-ə yaxın turistə müasir standartlara uyğun restoran, otel və müalicə xidmətləri göstərmək mümkün olacaq. Həmçinin turizm obyektlərində işləyənlərin sayı 1500-ə çatacaqdır.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan Şəhər İcra Hakimiyyəti Başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin 2019-cu ilin yekunları və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncaqları keçirilmişdir

Naftalan Şəhər İcra Hakimiyyəti Başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi və Qaşaltı Qaraqoyunlu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin 2019-cu ilin yekunları və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncaqları keçirilmişdir.

Keçirilən iclaslarda hesabat məruzələri dinlənilmiş, hesabat məruzələri ətrafında müxtəlif sahələri əhatə edən xidmət təşkilatlarının rəhbərləri çıxış etmişlər.





İclaslarda çıxış edən Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət qayğısı ilə şəhərimizin daha da inkişaf etdirildiyini, şəhərimizdə 200 yerlik Körpələr evi - uşaq bağçasının inşa olunduğunu, şəhərimiz inkişaf etdikcə turizm potensialının daha da gücləndiyini, yeni turizm obyektlərinin tikintisinin davam etdirildiyini və digər sahələrlə bağlı görüləcək işləri geniş vurğuladı.

Hesabat məruzələrindən sonra sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı icra nümayəndəliklərinin və aidiyyatı qurumların rəhbərlərinə tapşırıqlar verilmiş, onların həlli nəzarətə götürülmüşdür.

Yığıncağın sonunda sakinləri maraqlandıran suallar cavablandırılıb.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Naftalan Bələdiyyəsinin inşa olunan yeni inzibati binasına baxış keçirib

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı cənab Vüqar Novruzov Naftalan Bələdiyyəsinin yeni inzibati binasının mövcud vəziyyəti ilə tanış olub.




Naftalan Bələdiyyəsinin sədri Elman Verdiyev binanın mövcud vəziyyəti ilə bağlı icra başçısına ətraflı məlumat verərək bildirib ki, inzibati binada da son tamamlanma işləri görülür.

Şəhər rəhbəri bələdiyyənin işinin təkmilləşdirilməsi və səmərəli fəaliyyəti üçün binada aparılan işlərin sürətləndirilməsi və qısa müddət ərzində qalan işlərin yekunlaşması ilə bağlı tapşırılarını verib. Eyni zamanda paralel olaraq binanın ətrafında da abadlıq-quruculuq işləri nin aparılması vurğulanıb.



Qeyd edək ki, hazırda Naftalan bələdiyyəsi uyğunlaşdırılmış qaydada İ.Həsənzadə küçəsi 23 nömrəli nömrəli çoxmənzilli yaşayış binasının qeyri-yaşayış sahəsində icarə əsasında fəaliyyət göstərirdi.

**REDAKTORDAN**

# Komitənin sədr müavini Aynur Sofiyeva Naftalanda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva 2020-ci il 27 yanvar tarixində Naftalan şəhəri Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulunu keçirib.

Qəbulda Naftalan, Mingəçevir, Yevlax, Goranboy, Xocalı rayonundan olan sakinlərin ərizə, təklif və müraciətlərinə baxılıb. Görüş çərçivəsində sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, uşaq nikahları və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, qadın və uşaq hüquqlarının müdafiəsi, qadın sahibkarlığının inkişafı, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb.

Qəbulda vətəndaşların Komitənin səlahiyyətləri çərçivəsində müraciətləri müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyatı üzrə tədbirlər görülüb.

**Afət MUSTAFAYEVA,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında baş məsləhətçi, ictimai-siyasi və humanitar məsələlər üzrə işin aparıcısı**

# Naftalan Şəhər İcra Hakimiyyəti başçısının növbəti vətəndaş qəbulu keçirilib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun 27 yanvarda keçirilən növbəti vətəndaş qəbulunda fərdi olaraq 50 nəfərə yaxın vətəndaşın müraciəti dinlənilib.

Sakinlər tərəfindən qaldırılan müxtəlif məzmunlu müraciətlərdən həlli vacib və mümkün olan məsələlər yerindəcə həll olunub, müəyyən vaxt tələb edən digər məsələlərin həlli istiqamətində isə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin hər biri qeydiyyata alınaraq icrası nəzarətə götürülüb.

Qəbula gələnlər şəhər rəhbərinə səmimi qəbula görə razılıqlarını bildirərək, Naftalan və naftalanlılara göstərdiyi dəstək və qayğıya görə ölkə başçısı möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıq ediblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər icra hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# "2 fevral - Gənclər Günü" münasibəti ilə Naftalan şəhərində bilik yarışı keçirildi

Xəmsə
MİLLİ İNTELLEKTUAL OYUN

23 yanvar 2020-ci il tarixdə "2 fevral - Gənclər Günü" münasibəti ilə yeniyetmələr arasında "Xəmsə" Milli İntellektual oyunu üzrə Naftalan şəhər birinciliyi keçirildi. Səməd Vurğun adına 2 nömrəli tam orta məktəbdə keçirilən bilik yarışında ümumtəhsil məktəblərindən 4 komanda iştirak etdi. Gənclər gününün qeyd edilməsi, istedadlı yeniyetmələrin aşkar edilməsi, yeniyetmə və gənclər arasında yoldaşlıq, dostluq əlaqələrinin gücləndirilməsi məqsədi ilə keçirilən yarışda 12501 xalla İmadəddin Nəsimi adına 1 nömrəli tam orta məktəbin komandası I yeri qazanıb. Qalib komanda Gənclər və İdman idarəsi tərəfindən diploma təltif olunub.

**Elman ŞƏRƏFXANOV,**
**Naftalan şəhər Gənclər və İdman idarəsinin rəis əvəzi**

# İcbari sığorta - dəymiş zərəri aradan qaldırır!

Bəşəriyyət yarandığı gündən insanlar bir çox təbii fəlakətlər, yanğın, zəlzələ və digər təbii və texnogen hadisələrlə rastlaşmışlar. Heç şübhəsiz, kainatda baş verən bu cür gözlənilməz hadisələr bir sıra ağır fəsadlar törətmiş, dağıntılara və tələfatlara səbəb olmuşdur. Bütün bunlar isə mülkiyyət hüququndan asılı olmayaraq insanlara külli miqdarda ziyan vurmuşdur. Hətta elm və texnikanın ildən-ilə inkişaf etdiyi müasir dövrdə belə təbii fəlakətlərin, gözlənilməz hadisələrin dövlətin və insanların əmlakına vurduğu ziyandan, ağır nəticələrdən qaçmaq mümkün deyil.

Sığorta - şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

Məlum həqiqətdir ki, bütün dünyada olduğu kimi ölkəmizdə də yanğın hadisəsi baş verir. Təbii ki, bu halda əmlak sahibi həm maddi, həm də mənəvi cəhətdən ziyan çəkir. "İcbari sığortalar haqqında" qanunun əsas məqsədi yanğın və digər hadisələr nəticəsində əmlaka və sağlamlığa vurulan zərərin əvəzini vaxtında ödəməklə onların əmlak mənafelərinin qorunmasından və sosial müdafiəsinə əlavə təminat verilməsindən ibarətdir.

Əlbəttə, sığorta diqqətsizliyimiz nəticəsində baş verəcək hadisələrin qarşısını ala bilməz. Nə də ki, mənəvi cəhətdən bizə dəymiş olan yaralarımızı sağalda bilməz. Lakin bu bədbəxt hadisə nəticəsində dəymiş olan zərəri heç olmasa maddi cəhətdən təmin etmiş olur. Daha doğrusu, sığorta hər hansı gözlənilməz hadisə və ya qəzadan zərər-çəkən insanların vəziyyətini bərpa etmək, zərəri aradan qaldırmaq üçün vasitədir.

Yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Daşınmaz əmlakın istismar edilməsi, o cümlədən onun ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılması nəticəsində aşağıdakı hallarda zərərçəkən üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə mülki məsuliyyətin yaranması faktı sığorta hadisəsi hesab olunur:

-elektrik və qaz cihazlarından istifadə nəticəsində yaranan yanğın, yaxud belə yanğının qarşısının alınması üçün görülən tədbirlərin nəticəsi;

-qaz partlayışı;

-elektrik naqillərində baş verən qısaqapanma;

-su, istilik, kanalizasiya xətlərində baş verən qəza nəticəsində subasma;

-hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri;

-yerüstü nəqliyyat vasitəsinin dəyməsi;

-təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi;

-üçüncü şəxslərin hərəkətləri.

Əmlakın aşağıdakı hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunmur:

-sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər;

-sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi;

-hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması;

-qrunt sularının səviyyəsinin dəyişməsi;

-suyun borulardan və ya rezervuardan şaxta vurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması.

Mülkiyyətində "İcbari sığortalar haqqında" Qanunun 35.2.-ci maddəsində nəzərdə tutulmuş hər hansı daşınmaz əmlak olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxslər həmin əmlakı bu Qanunun 8.3-cü maddəsini nəzərə almaqla, icbari qaydada sığorta etdirməlidir.

Sahibi olduğu daşınmaz əmlakın icbari sığortası müqaviləsini bağlayan və müvafiq icbari sığorta şəhadətnaməsinin adına verildiyi şəxs sığortalı hesab edilir.

Sığorta müqaviləsi sığortalının yazılı ərizəsi və əmlakın dəyəri göstərilməklə sığorta olunmaq üçün təqdim edilən əmlakın siyahısı əsasında sığortaçının nümayəndəsi tərəfindən sığorta olunanın iştirakı ilə sığorta obyektinə baxılmaqla bağlanılır.

Sığortalının əmlakı tam dəyəri ilə sığortaya cəlb edilir. Sığorta müqaviləsi bir il müddətinə bağlanılır.

İcbari sığorta müqaviləsinin bağlanmamasına görə "İnzibati Xətalar Məcəlləsi"ndə mülki məsuliyyət nəzərdə tutulub. "İnzibati Xətalar Məcəlləsi"nin 469.1 maddəsində qeyd olunub ki, icbari sığorta qanunvericiliyinə əsasən, müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə inzibati cərimə tətbiq edilir.

"İcbari sığortalar haqqında" qanunun 75-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yaşayış binaları, yaşayış evləri və mənzillərin icbari sığortasına münasibətdə müvafiq yerli icra hakimiyyəti orqanları, digər daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

**FHN Aran Regional Mərkəzi Maarifləndirmə sektoru**

# 2019-cu ildə Naftalan rekord həddə - 40 min turist qəbul edib



Respublikamızda qeyri-neft sektorunun ən çox inkişaf edən sahələrindən olan turizm bir çox bölgələrin, xüsusən də müalicəvi nefti ilə məşhur olan Naftalan şəhərinin iqtisadiyyatının əsasını təşkil edir.

Son illərdə ölkəmizdə görülmüş bütün işlər, o cümlədən beynəlxalq arenadakı mövqe, keçirilmiş beynəlxalq tədbirlər, ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq respublikamızda, eləcə də Naftalanda turizmin inkişafına böyük təkan verib. 2019-cu ildə Naftalana olan turist səfərləri rekord həddə çatıb - şəhərə 40 min turist gəlib. Onlardan 40 faizi dünyanın 61 ölkəsindən gələnlər olub.

Turistlərdən Rusiya, Qazaxıstan, Özbəkistan, İsrail, Ukrayna, Belarus, Türkiyə, Səudiyyə Ərəbistanı, Küveyt, Litvadan olan qonaqlar üstünlük təşkil edib. Bununla yanaşı Birləşmiş Ərəb Əmirlikləri, Tacikistan, Bəhreyn, Qətər, İran, Çin, Estoniya, Almaniya, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Qırğızıstan və Kanadadan olan turistlər də buradakı kurort və sanatoriyaların xidmətlərindən istifadə ediblər.

Qeyd edək ki, hazırda Naftalanda 11 turizm obyekti fəaliyyət göstərir və burada bir gündə 2500-dən çox turist müalicə ala və istirahət edə bilər. Şəhərdə tikintisi davam etdirilən turizm obyektləri də istifadəyə verildikdən sonra Naftalanda gün ərzində, ümumilikdə, 3500-ə yaxın turistə otel və müalicə xidmətləri göstərmək imkanı olacaqdır.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan Şəhər Statistika İdarəsi tərəfindən 2018-2019-cu illər ərzində İnzibati məsuliyyətə cəlb edilmiş hüquqi və fiziki şəxslər barədə məlumat

Məlumat üçün bildiririk ki, "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanunun 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikası ərazisində yerləşən bütün hüquqi şəxslər (onların nümayəndəlik və filialları) və fiziki şəxslər dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatları müəyyən edilmiş həcmdə və müddətlərdə haqqı ödənilmədən kağız və ya müvafiq qanunvericiliyə uyğun olaraq məlumatların təqdim edilməsi təsdiq oluna bilən elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim etməyə borcludurlar.

Eyni zamanda bildiririk ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 389-cu "Statistik məlumatların verilməsi qaydalarının pozulması" maddəsinə əsasən statistik müşahidələrin aparılması zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə 300 manatdan 500 manatadək cərimə müəyyən olunmuşdur.

Naftalan şəhər Statistika idarəsi daim, müəssisələr tərəfindən "Rəsmi Statistika Hesabatları"nın vaxtında və dolğun təqdim edilməsi üçün müvafiq tədbirlər görür. Belə ki, 2018-ci il ərzində 19 "hüquqi" və 2 "fiziki şəxs", 2019-cu il ərzində isə 5 "hüquqi şəxs" zəruri olan məlumatlarıntəqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə hüquqi şəxslər ümumilikdə 8200.00 manat məbləğində, fiziki şəxslər isə 600.00 manat məbləğində Naftalan şəhər Statistika idarəsi tərəfindən cərimə olunmuşdurlar.

Mütəmadi olaraq, Naftalan şəhər ərazisində yerləşən bütün hüquqi şəxslərə (onların nümayəndəlik və filialları) və fiziki şəxslərə dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatları müəyyən edilmiş həcmdə və müddətlərdə haqqı ödənilmədən kağız və ya müvafiq qanunvericiliyə uyğun olaraq məlumatların təqdim edilməsi təsdiq oluna bilən elektron sənəd formasında Naftalan Şəhər Statistika idarəsinə vaxtında və keyfiyyətlə təqdim etmələri üçün müvafiq bildiriş məktubları göndərilir.

Şəhər ərazisində fəaliyyətdə olan "hüquqi" və "fiziki" şəxsləri cərimələrə məruz qalmamaları üçün müvafiq məlumatları vaxtında və keyfiyyətlə təqdim etməyə çağırıram.

**Samir QOCAYEV,**
**Naftalan Şəhər Statistika İdarəsinin rəisi**

# Naftalan şahmatçıları Azərbaycan birinciliyinin seçmə yarışlarında iştirak edir



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 25 yanvar - 03 fevral 2020-ci il tarixlərdə Ağcabədi rayonunda şahmat üzrə 8,10,12,14 və 16 yaşadək oğlan və qızlar arasında keçirilən Azərbaycan birinciliyinin seçmə yarışlarında şəhərimizin şahmatçıları da iştirak edir.

Yarışda Naftalan şəhər Gənclər və İdman idarəsinin nəzdində fəaliyyət göstərən Uşaq-Gənclər İdman məktəbinin şahmat bölməsinin 8 və 10 yaş qrupları üzrə 7 nəfər şahmatçısı şəhərimizi təmsil edir.

25 yanvar 2020-ci il tarixdə başlayan yarışlar 03 fevral 2020-ci il tarixdə başa çatacaqdır.

Azərbaycan birinciliyində şahmatçılarımıza uğurlar arzulayırıq.

**REDAKTORDAN**

# İTMİŞDİR

●Naftalan şəhər sakini, mərhum Paşayeva Saray Əziz qızına məxsus 25.11.2004-cü il tarixli RX 510011000031-05101-093012 №-li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

●Naftalan şəhər Qaşaltı Qaraqoyunlu kənd sakini, Quluyev Mahir İsmayıl oğluna məxsus 1815006447, 1815006448, 1815006449 №-li qeydiyyat nömrəli çıxarışlar itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Naftalan Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi iş yoldaşları Səbuhi Qasımova əzizi

**CƏMİLƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Naftalan Şəhər İcra Hakimiyyəti Başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin kollektivi iş yoldaşları Məmmədov Turala, anası

**MEHRİBAN MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

REDAKTOR: Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1. Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500